# BİZİMLƏ QOŞA ADDIMLAYAN DAHİ

**Dünyanın ən böyük şəxsiyyətlərinin xarakterini açmaq üçün bəzən ən xırda detal, ən adi jestdən istifadə edirlər. Bu mənada xalqımızın ümumilli lideri, müasir Azərbaycanın banisi Heydər Əliyevin həyatı sayahesaba gəlməyən detallara, ştrixlərlə doludur. Ulu öndərin doğum günü ərəfəsində onun haqqında düşünərkən bu detallar, bu ştixlər, ömrünün müxtəlif anlarını özündə əks etdirən bu məqamlar bildiyim qədər bir-bir gəlib gözümün qabağından keçdi.**

Ən çox onun pul-paraya, bahalı geyimə, bahalı maşina, bir sözlə dəbdəbəli həyata münasibəti yadıma düşdü. Bu mənada onu həmişə gözütox, vətənindən və xalqından başqa heç nə haqqında düşünməyən gördük. Lap uşaqlıqdakı ideal müəllim obrazlarımız kimi. Yəqin, çoxunun xatirindədir ki, bir zamanlar müəllimlərin cibinə pul qoyduğuna, yemək yediyinə, yatdığına heç kim inanmırdı. Sanki onlar insan deyildilər, mələk idilər və hamı kimi yaşamırdılar.

Onun şəxsi evi və maşını da yox idi. 1998-ci il prezident seçkilərinə namizədlər arasında ən kasıblarından idi. Bu uzaq tarix deyil və bütün hadisələr gözümüzün qarşısında baş verib. Özü də o zəmanədə ki, əlinə balaca bir vəzifə keçən bəzi adamlar anındacı özlərini itirir, mümkün qədər çox varlanmağa, pullanmağa, komfort yaşamağa çalışırdılar.

Bir dəfə mərhum prezidentimiz başının dəstəsi ilə şəhəri gəzirdi. O, mağazalara girib qiymətlə maraqlanır, satıcılara suallar verirdi. Bir oyuncaqdan xoşu gəldi, almaq istədi, ətrafına boylanıb yoldaşlarından birinə "Əgər pulun varsa, bu oyancağı götürmək istəyirəm" - dedi. Həmin adam satıcının pulunu verib oyuncağı götürdü.

Oxşar hadisə Naxçıvanda bir çayxanada baş verdi. böyük öndər anna yurdunda qəfil kasıbyana bir çayxanaya döndü, limonlu çay içdi, çay haqqında xeyli danışdı, sonra qiymətini öyrənib onu müşayiət edən şəxslərdən birindən çayın pulunu ödəməsini xahiş etdi. Halbuki çayçı onu qonaq etməkdən məmnunluq duyduğunu bildirirdi.

Əlbəttə, burada söhbət həmin oyuncağın, yaxud həmin çayın qiymətindən, ödənişləri kimin eləməsindən getmir. Burda söhbət böyük bir şəxsiyyətin adi, sadə jestlərlə böyük mətləblər anlatmasından gedir.

Heydər Əliyev onu müdafiə edən, təbliğ edən mətbuat orqanlarının aylarla gördüyü işi iki-üç kəlməlik danışığı və hərəkəti ilə bir neçə saniyənin içində edə bilirdi. Çünki doğrudan da xalqın içindən çıxmışdı və qəlbən, ruhən hər birimizə yaxın idi. yoxsa bu hərəkətlər bu qədər sadə və səmimi alınmazdı. İnsan məqsədli şəkildə belə təbii hərəkət edə bilməz.

Heydər Əliyevlə bağlı daha bir məsələ həmişə diqqətimi cəlb edir. Onu sevməyən, rəhbərliyini, prezidentliyini, hətta bəlkə yaşamasını istəməyən ən nankor, ən naqis, ən namərd adamlar belə dövlət əmlakından sui-istifadə etməsi haqqında bircə cümlə də yazmamış və deməmişlər. Halbuki gözdə tük axtarırdılar. Əllərində belə bir cüzi fakt olsa şişirdib aləmə car çəkəcəkdilər. Görünür, nə qədər pis insan olur-olsun vicdan hissini axıracan itirmir. Eyni zamanda, bu xislətdə olan insanlar nə qədər qərəzli kampaniyalar aparsalar da Heydər Əliyevin şəxsiyyətinin böyüklüyünü, onun hər kəsdən üstün olduğunu danmırdılar. Onları bu etirafa kökləyən, təmiz qəlbləri və səmimiyyətləri deyil, Heydər Əliyevin əfsanəvi nəhəngliyi idi. Dana bilmirdilər, etiraf etməyə bilmirdilər. Əks təqdirdə gülməli vəziyyətə düşərdilər.

Böyük həqiqətin qarşısında böhtan söyləmək olmur.

Heydər Əliyev cənabları hakimiyyətə gəldikdən sonra Azərbaycanda böyük kadr siyasəti həyata keçirildi. O, ətrafına işgüzar, savadlı, böyük həyat və idarəçilik təcrübəsi olan, özünə və dövlətçiliyə sədaqətli adamlar topladı. O vaxt respublikada vəziyyət çox gərgin idi. Etibar etməli adam az idi. Heydər Əliyev bu çətin sınaqlardan mərdanə çıxdı. İşgüzar kadrlar hazırladı, onların etibarını yoxladı, ələkdən keçirdi, saxtakarlar, iş bilməyənlər, vəzifədən sui-istifadə edənlər ələnib getdilər. Heydər Əliyevin ələyində ələnənlər tarixdən də ələnib itdilər, yox oldular. Çünki tarix doğruları, iş bacaranları, ümumilli maraqları şəxsi maraqlardan üstün tutanları saxlayır.

Heydər Əliyev səriştəli kadrların yetişməsi üçün hələ birinci katib işlədiyi vaxtlardan mümkün olan hər şeyi edirdi. Respublikamızdan neçə-neçə savadlı gənci keçmiş ittifaqın, müstəqillikdən sonra isə dünyanın ən yüksək ali məktəblərinə oxumağa gbndərmişdi. Sevindirici haldır ki, buə nənə bu gün də davam etdirilir.

Şübhəsiz ki, yeni Azərbaycanı (eyni adlı partiyanın yaradılması da təsadüfi deyil - K.H.) təkbaşına qurmaq imkansız idi. Heydər Əliyev bu işdə onunla çiyin-çiyinə dayanmağı bacaran böyük şəxsiyyətlər yetişdirməli idi. belə şəxsiyyətlərin biri də, xoşbəxtlikdən, Heydər Əliyevin öz evində, özailəsində böyüyürdü və estafeti atasından alıb, ölkəmizi azad, aydın sabahlara aparmaq onun həyat amalına çevrilmişdi. Doğrudur, Heydər Əliyev Azərbaycanı gələcəyə gedən relslərin üstünə qoymuşdu, ancaq bu relslərlə irəliləmək, lokomotiv kimi cəmiyyəti ardınca çəkmək asa niş deyildi. İllah da indiki qarışıq zamanda ki, həm daxildə, həm də xaricdə bizi sevməyən qüvvələr vardır.

Azərbaycan xalqının gözəl bir deyimi var, kişi-kişiyə alqış edəndə deyir: "Allah sənə xeyirli övlad qismət etsin". Bu gün tam cəsarətlə demək olar ki, hörmətli prezidentimiz İlham Əliyev cənablarının simasında böyük Yaradan Heydər Əliyevə xeyirli övlad qismət etdi. Az keçməmiş o, təkcə Heydər Əliyev üçün deyil, bütün Azərbaycan üçün xeyirli övlad oldu.

Heydər Əliyevdən sonra Azərbaycanın prezidenti olmaq çox çətin və şərəfli iş idi. yaxşı yadımdadır, 2003-cü il prezident seçkilərinin ardınca Azərbaycan xalqı "Qələbə" kinoteatrının qarşısında İlham Əliyevi dəstəkləyən möhtəşəm mitinq keçirdi. Fəxr edirəm ki, həmin mitinqdə Azərbaycanın görkəmli alim və ziyalıları ilə yanaşı mən də ürək sözlərimi söyləyib cənab prezidentimizə xoş arzularımı çatdırmaq imkanı qazandım. Sevinirəm ki, o



vaxt etdiyim bütün alqışlar çin oldu, hörmətli prezidentimiz xalqın etimadını şərəflə doğrultdu.

Azərbaycanın son 10 ildəki nailiyyətləri göz qabağındadır. Bilmirsən hansından yazasan. Tikintidənmi, səhiyyədənmi, təhsildənmi, qaçqınlar və məcburi köçkünlərə münasibətdənmi, uğurlu daxili və xarici siyasətdənmi, kadr siyasətindənmi, ordumuzun güclənməsindənmi, son vaxtlar torpaqlarımızın azad olunması ilə bağlı göstərilən inanılmaz şücaətdənmi? Uğurlar birdirmi, beşdirmi? Bu mövzuları müfəssəl əhatə etmək üçün cildcild yazmaq lazımdır.

Bax Heydər Əliyev siyasi kursu deyərkən indi içində olduğumuz çoxsaylı uğurlar nəzərdə tutulur. Bu kursu yaşatmaq, uğurla davam etdirmək elə o kursu müəyyən etmək qədər böyük işdir.

Heydər Əliyevlə çiyin-çiyinə müasir Azərbaycanı yaradan kişilərdən biri də Milli Elmlər Akademiyamızın həqiqi üzvü, böyük ağsaqqal və tanınmış ziyalı Ramiz Mehdiyevdir. Ramiz müəllim Heydər Əliyevin yetirməsidir. O, Azərbaycanın çətin günlərində öz müəlliminə sədaqətini ləyaqətlə nümayiş etdirirdi, düzgünlük, təmizlik və paklıq uğrunda cəsarətli addımlar atdı. R.Mehdiyev bu gün də gənclik ehtirası ilə çalışır, Heydər Əliyevin dövlətçilik ənənələrinin tədqiq olunması, öyrədilməsi və həyata keçirilməsində əvəzsiz xidmətlər göstərir.

Heydər Əliyev cənablarının yetişdirdiyi kadrlar içərisində özünəməxsus yeri olan, Heydər Əliyevi və Azərbaycanı qəlbən sevən, xalqına və vətəninə şərəflə xidmət edən şəxslərdən biri də daxili işlər naziri, general-polkovnik Ramil Usubovdur. 22 ildir böyük və mürəkkəb bir sistemə rəhbərlik edən Ramil müəllim gecəsini gündüzünə qataraq Azərbaycana sədaqət nümunəsi göstərdi, yüksək rütbəli zabitlər yetişdirdi. O zabitlərin bir çoxu ölkəmizin asayişini qorumaqla yanaşı torpaqlarımızın bütövlüyü uğurunda canından keçdi. Yeni yaranmaqda və inkişaf etməkdə olan ölkələrdə cinayətkarlarla mübarizə aparmaq ən vacib, ən əhəmiyyətli və ən çətin işlərdən biridir. Ramil Usubov bu çətin işin öhdəsindən ləyaqətlə gəldiyi üçün xalqın böyük inamını və hörmətini qazandı. Həm nazir, həm zabit, həm ziyalı, həm də ağsaqqal kimi hər kəsin gözündə ucaldı.

Böyük Heydər Əliyev cənablarının Ramil müəllim haqqında dediyimi sözlər hörmətli generalı xarakterizə etmək üçün kifayətdir. Bu sözləri heç bir prezident öz naziri haqqında belə açıq söyləməyib: "Neçə ki, mən Azərbaycana rəhbərlik edirəm, hörmətli Ramil Usubov daxili işlər naziri işləyəcəkdir".

### *Təcrübə göstərdi ki, böyük Öndər nə qədər haqlı imiş*

Təbii ki, Heydər Əliyev məktəbində yetişən, onunla eyni vaxtda işləmək xoşbəxtliyini yaşayan vəzifəli şəxslər çoxdur. Bir yığcam məqalədə bu dəyərli insanların hamısı haqqında yazmaq imkansızdır. Ancaq baş nazirin müavini, "Qaçqınkom"un sədri Əli Həsənovun adını çəkməsəm doğru olmaz. Nədən ki, mənim məcburi köçkün həyatı yaşayan çoxlu qohum-əqrəbam var və dövlətin bu sahədə gördüyü iş məni sevindirməyə bilmir.

Bayaq dediyim kimi, siyasi kursun banisi də, onun ləyaqətli davamçısı da məlumdur. Bu doğru-dürüst müəyyən olunmuş dövlətçilik ənənələrindən irəli gələn vəzifələrin icrasında da dəyərli, layiqli şəxsiyyətlər lazımdır. əli Həsənov bu cür şəxsiyyətlərdəndir. Yadınızdadırsa, hörmətli prezidentimiz İlham Əliyev cənabları prezident seçkilərkən xalq qarşısında söz verməşdi ki, çadır şəhərciyini ləğv edəcək. Etdi də. Nəinki çadır şəhərciyindən insanları abad evlərə köçürdü, hətta Bakı şəhərində ağır şəraitdə olan yataqxanaları söküb qaçqın və məcburi köçkünləri təzə, rahat mənzillərə köçürdü və bu proses indi də davam etməkdədir. Bütün bu xeyirxah işlərin reallaşmasında Əli müəllimin və onun rəhbərlik etdiyi komitənin danılmaz əməyi vardır.

İndi sual edirəm: qaçqın və məcburi köçkünlərə bu sevgi, bu humanist münasibət hardan gəlirdi? Şübhəsiz, Heydər Əliyev cənablarından! Mən Heydər Əliyevi heç bir toyda, heç bir şənlikdə ürəkdən oynayıb şənlənən görməmişdim. Ancaq qaçqın və məcburi köçkünlərin toylarında onu qol götürüb oynayan gördüm. Sanki öz doğma övladlarına toy edirdi, onların qayğısını çəkirdi.

Yadınızdadırsa, İlham Əliyev cənabları öz ad gününü mənim həmyerlimin - laçınlıların məskunlaşdığı Taxtakörpü qəsəbəsində onlarla birlikdə keçirdi. Yeri gəlmişkən, Taxtakörpü qəsəbəsində də qaçqın və məcburi köçkünlər üçün böyük qəsəbə salınıb, iş yerləri açılıb, yollar çəkilib. Evlər daimi qaz və işıqla təmin olunub.

Heydər Əliyev valideynlərini Qarabağ müharibəsində itirmiş uşaqlarla da görüşəndə çox ağır hisslər keçirirdi. Həmin görüşlərdə uşaqlara baxıb uşaqlaşır, əllərindən tutub onlarla birlikdə şənlənir, "Sizin problemlərinizin həlli çox uzaqda deyil" - deyə hayqırırdı.

Heydər Əliyevin unudulmaz xarici səfərləri hamının yaxşı yadındadır. Xoşbəxtlikdən mən də bu səfərlərdən birinin iştirakçısı olmuşam. 1994-cü ilin iyul ayının əvvəli idi, İran İslam Respublkiasının prezidenti Haşimi Rəfsəncaninin dəvəti ilə başda hörmətli prezidentimiz Heydər Əliyev cənabları olmaqla böyük bir heyət İrana səfər etdik. Təyyarədə əyləşib uçuşa hazır olduğumuz zaman salonun girişində Heydər Əliyevin əzəmətli siması göründü. O, bir-bir hamımıza yaxınlaşaraq əl tutdu, əhvalımızı soruşdu. Səfərimizin ilk gününün axşamı İran prezidenti heyətdən 30 nəfəri qonaq çağırdı. Mən də o heyətdə idim. Orada Rəfsəncaninin Heydər Əliyev cənablarına sonsuz hörmət və sayğısının şahidi oldum. Səhəri gün Rəfsəncaninin şəxsi təyyarəsi ilə İsfahan şəhərinə getdik, Şah Abbas məscidini ziyarət etdik. Sonra Şah Abbas tərəfindən inşa edilmiş möhtəşəm körpü ilə tanış olduq. Körpünün üstündə hər iki yandan piyada yolu vardı. Digər yol isə yerli daşdan yonulmuş iri pilləkənlər idi. Heydər Əliyev yolunu ordan saldı. Pilləkənlər iri olduğundan hərəkət etmək çətin idi. Heydər Əliyev pillələri cavanlıq eşqi ilə çıxır, hərdən arxaya boylanıb gülə-gülə bizə ürək-dirək verirdi. Mənzil başına çatanda ətrafında toplaşdıq, gülə-gülə bizə "İdmanla zəif məşğul olursunuz" - dedi.

Heydər Əliyev "Biz sizin yolunuzda ölümə hazırıq" - deyənlərə "Ölmək lazım deyil, qələbəyə getmək lazımdır" - cavab verirdi.

Düşünürəm ki, hər birimiz məşğul olduğumuz sahədə şərəf və ləyaqətlə işləməklə, çalışmaqla ulu öndərimizin ruhunu şad etmiş olarıq.

Heydər Əliyevin şəxsiyyəti haqqında indən belə də çox yazılacaq, çox deyiləcək. Onun parlaq şəxsiyyəti bütün zamanlar üçün yenidən tədqiq olunmağa ehtiyac yaradır. O, aydın və işıqlı sabahlara bizimlə birlikdə addımlayır.

### *Heydər Əliyev Azərbaycan üçün nə etmədi?*

Bir anlıq düşünək ki, Tanrı bu böyük şəxsiyyəti bizə nəsib etməyib. Halımız necə olardı? Yəqin ki, on səkkizinci əsrdəki kimi altıyeddi xanlığa bölünmüşdük, bədnam qonşularımız isə, ən azı gəlib Kür çayına çıxmışdı.

Sarsılmaz dövlətçilik, ordu quruculuğu, iqtisadiyyat, elm, mədəniyyət, tibb, idman və digər başqa vacib sahələrdə qazandığımız hər uğura görə Heydər Əliyevə minnətdar olmalıyıq.

Bugünkü Azərbaycan üçün ona borcluyuq!

Allah o böyük şəxsiyyətə qəni-qəni rəhmət eləsin.

Qəbri nurla dolsun.

**Kamil Həsənov**
**İqtisadi elmləri namizədi**